Uzaq Şərqdən yüksələn fəryad

UYĞUR TÜRKLƏRİ

ƏLİ AĞAOĞLU,
araşdırmaçı-yazar

Birləşmiş Millətlər Təşkilatı (BMT) 2018-ci ildə 1 milyondan çox uyğur türkünün Çin hökuməti tərəfindən qanunsuz şəkildə azadlıqdan məhrum edilərək düşərgələrdə saxlanıldığını bəyan etdi. Bundan sonra dünyanın diqqəti Çinin Sincan adlandırdığı, yəni keçmiş adı ilə Şərqi Türküstan ərazisinə yönəldi. Əlbəttə ki, Çin Xalq Respublikası rəsmiləri dərhal bu bəyanata "Çin üsulu" ilə bir cavab uydurdu və həmin düşərgələrin, əslində, tədris mərkəzi olduğunu, orada uyğur türklərinə onların şəxsi istəkləri ilə pulsuz təhsil verildiyini, fiziki hazırlıqlar keçirildiyini, cəmiyyət üçün faydalı vətəndaş olaraq yetişdirildiklərini bildirdilər. Lakin, əlbəttə ki, bu, həqiqət deyildi. Düşərgələrdə saxlanılan uyğur türklərinin ailə üzvləri, qohumları həmin şəxslərin qəflətən yoxa çıxdıqlarını, sonra isə düşərgələrə aparılmaları barədə məlumat əldə etdiklərini, lakin yaxınları ilə hər hansı bir formada əlaqə saxlamağın mümkün olmadığını bildirir, bu istiqamətdə kömək edilməsi üçün dünya dövlətlərinə haqq səslərin hayqırırdılar.

2019-cu ildə BMT Çin Xalq Respublikasının uyğur türklərinə soyqırımı tətbiq etdiyini bəyan etdi və Çin Xalq Respublikasından dərhal düşərgədə saxlanılan şəxsləri azad etməsini və bitərəf nümayəndə heyətini tədqiqat üçün həmin düşərgələrə buraxmasını tələb etdi. Çin Xalq Respublikası rəsmiləri bu vəziyyətdən bir qədər narahat olaraq əvvəlcə peyk vasitəsilə çəkilmiş görüntülərdə ətrafı tikanlı məftillərlə hörülmüş, müşahidə məntəqələrinin olduğu düşərgələrdə məftilləri və silahlı şəxslərin növbə çəkdikləri müşahidə qüllələrini ləğv etdi, düşərgədə saxlanılanların düzülüşü üçün nəzərdə tutulmuş meydançanı isə idman meydançası ilə əvəz etdilər. Bundan sonra özlərinin seçərək icazə verdikləri bir neçə jurnalist həmin düşərgələrə buraxıldı. Qabaqcadan səhnələşdirilmiş bir "Çin teatrı" tamaşaçılara təqdim edildi. Lakin düşərgələrin ilkin vəziyyətinin görüntüləri, eyni zamanda jurnalistlərin ərazidən silahlı qüvvələr tərəfindən uzaqlaşdırıldığı barədə görüntülər artıq sosial şəbəkələrdə geniş yayılmışdı və hazırda da mövcuddur.

Çinin uyğur türklərinə qarşı tətbiq etdiyi bu siyasətin tarixi kökü çox qədimdir. Tarixi vərəqləyənlər yaxşı bilirlər ki, Çin hakimiyyəti hələ Ağ Hun imperiyası vaxtından türklərin qılıncı ilə tanış olmuş və bir sıra mənbələrə görə, hətta bu qorxu onların Böyük Çin səddini inşa etmələrinə səbəb olmuşdur. Türklərə döyüş meydanında qalib gəlməyin mümkün olmadığını görən Çin imperatorları onları hiylə dolu gedişlər-

> ***"Tarix boyu Çinin türklərə qarşı apardığı siyasətin təməlində türklərin assimilyasiya edilməsinin durduğunu görürük. Uyğur Türk Dövləti türk dövlətləri içərisində şəhərsalma fəaliyyəti ilə məşğul olmuş, türkləri köçəri həyatdan oturaq həyata keçirmiş, əlifbası olmuş ilk türk dövlətidir...***

lə məhv etməyi qarşılarına məqsəd qoymuş və qismən buna nail olmuşlar. Belə ki, onların təşkil etdiyi fitnə-fəsadlara aldanan türk bəyləri bir-biri ilə mübarizəyə atılmış, Böyük Göytürk imperiyası ikiyə parçalanmış, ərazilərini itirmiş, Çin imperiyasından vassal asılılığını qəbul etmişdir. Bu fürsəti dəyərləndirən Çin imperatoru Şərqi Göytürk imperatorluğuna Çin ərazisinə yerləşməyi, burada çinlilərlə qardaş kimi yaşamağı təklif etmiş, lakin xaqan onlara vergi versə də, öz adət-ənənələrindən əl çəkməyəcəklərini, türk xalqı kimi yaşayacaqlarını bildirərək bu təklifdən imtina etmişdir. Hətta türklərin böyük xaqanı Bilgə xaqan Çin imperiyasının türklərə qarşı olan bu mənfur siyasətini mənimsəmiş və özündən sonrakı nəsillərə dərs olsun deyə "Orxon-Yenisey" abidələrinə bu sözlərini yazdırmışdır: *"Çinin dili şirin, ipəyi yumşaq olur. Şirin dillə, gözəl vədlə uzaq düşməni yaxın edir. Buna nail olduqdan sonra mənfur niyyəti aşkara çıxır".* Tarix boyu Çinin türklərə qarşı apardığı siyasətin təməlində türklərin assimilyasiya edilməsinin durduğunu görürük. Uyğur Türk Dövləti türk dövlətləri içərisində şəhərsalma fəaliyyəti ilə məşğul olmuş, türkləri köçəri həyatdan oturaq həyata keçirmiş, əlifbası olmuş ilk türk dövlətidir. Siyasət, müharibə, müqavilə, danışıqlar və s. Bunlar, əlbəttə ki, tarixin bir hissəsidir və hücum varsa, müdafiə zamanı müxtəlif taktiki gedişlərdən istifadə etmək ölkələrin, dövlətlərin, imperiyaların təbii hüququdur. Lakin bir milləti kökündən ayırmaq, onun dilini, adət-ənənəsini məhv etmək, assimilyasiyaya məruz qoymaq, soyqırımı tətbiq etmək taktiki gediş deyil, siyasi əxlaqsızlıqdır. Şərqi Türküstanda yaşayan uyğur türkləri, əfsuslar olsun ki, bu əxlaqsızlığa çox məruz qalmışdır və hazırda da qalmaqdadır.

Şərqi Türküstan ərazisi uyğur türklərinin qədim tarixi torpağıdır. Lakin 1875-ci ildə Osmanlı imperiyasının zəifləməsindən istifadə edən Çin bu ərazidə olan və Osmanlı imperiyasının himayəsini qəbul etmiş Kaşğar əmirliyini süquta uğratmış və Şərqi Türküstan "Sincan" adlandırılmağa başlanmışdır. Elə bu tarixdən etibarən Çinin uyğur türklərinə qarşı assimilyasiya siyasəti davam etmiş, onlar fiziki-psixoloji işgəncələrə, hər cür istismara məruz qalmışlar.

1933-cü ildə artıq Çin zülmünə dözə bilməyən uyğur türkləri azadlıq hərəkatına qalxmış və Şərqi Türküstan İslam Respublikasını qurmuşlar. Bu quruluş iki rəqib dövləti – SSRİ və Çini bir-birinə yaxınlaşmağa məcbur etmişdir. Yaxınlığında azadlıq hərəkatına qalxmış və müstəqillik əldə edərək respublika qurmuş bir türk dövlətinin olmasının SSRİ-nin tərkibində olan digər türk xalqlarına da ilham verəcəyindən ciddi narahatlıq keçirən Stalin kömək məqsədilə "Qızıl Ordu"nu Çinə göndərmişdir. Nəticədə Şərqi Türküstan İslam Respublikası 6 ay ömür sürdükdən sonra işğala məruz qalmışdır. İşğaldan sonra Şərqi Türküstan Çin ərazisi hesab olunsa da, faktiki olaraq əraziyə SSRİ nəzarət etmişdir.

II Dünya müharibəsində almanların SSRİ-yə hücumunu fürsət bilən Çin Şərqi Türküstan üzərində ağalığı ələ almaq istiqamətində məqsədyönlü hərəkətlərə başlamışdır. Çinin bu addımlarını diqqətlə izləyən Stalin Şərqi Türküstanda Çinin möhkəmlənməsinin qarşısını almağın yolunu uyğur türklərinin azadlıq hərəkatını dəstəkləməkdə görmüşdür. Əlbəttə, Stalinin məqsədi Almaniyanın hücumunu dəf edənə qədər vaxt qazanmaq, müharibədən sonra Şərqi Türküstan ərazisini rəsmi olaraq işğal etməklə SSRİ-yə qatmaqdan ibarət idi. Bununla da Şərqi Türküstanda Əlixan Törə rəhbərliyində uyğur türklərinin azadlıq hərəkatı başladı. Əlixan Törə rəhbərliyində uyğurların əfsanəvi komandiri, "Altay qartalı" təxəllüslü Osman Baturun başçılıq etdiyi azadlıq ordusu 1941–1944-cü illərdə apardıqları mübarizədə sayca özlərindən çox olan və daha yaxşı silahlanmış Çin ordusunu məğlub etdi. Yenidən Şərqi Türküstan Respublikası qurul-

du. Respublikanın ilk prezidenti Əlixan Törə seçildi. Əlixan Törənin Mərkəzi Asiya türkü olması və həmin əraziləri "vətənim" adlandırması Stalini narahat edirdi. O, Əlixan Törənin Mərkəzi Asiyada da türk xalqlarının azadlıq hərəkatını təşkil etməsindən narahat olurdu. Eyni zamanda Çin də Şərqi Türküstanın tamamilə əldən çıxmasından narahat olur. Bu məqsədlə iki müstəmləkəçi dövlət birləşir. Çin Şərqi Türküstan Respublikası ilə münasibətlərini nizama salmaq üçün görüşmək istədiyini bildirir. Stalin isə vasitəçi olmağı qəbul edir və görüş yeri olaraq Qazaxıstan ərazisi seçilir. Görüşə gələn Əlixan Töreni SSRİ NKVD-si (Xalq Daxili İşlər Komissarlığı) oğurlayaraq Özbəkistanın Daşkənd şəhərinə apartdırır və Əlixan Törə vəfat edənədək, yəni 1976-cı iləqədək burada ev dustaqlığında saxlanılır.

Şərqi Türküstanın yeni prezidenti isə SSRİ-nin dəstəklədiyi Əhməd Qasimi olur. Əhməd Qasimi SSRİ və Çin kimi iki nəhəng dövlətin arasında sıxılıb qalmış Şərqi Türküstan Respublikasının müstəqil siyasət yürütmək ehtimalının olmadığını görür və bu iki nəhəngdən SSRİ ilə münasibətlərin yaxşı saxlanmasının uyğur türkləri üçün daha faydalı olacağını düşünür. Çünki o, SSRİ siyasi mərkəzinin Şərqi Türküstandan uzaqda yerləşməsini, əhali sayının daha az olmasını uyğur türklərinin milli varlığını qoruması baxımından əsas meyar hesab edirdi. Bunun əksinə, Çinin yaxın təhlükə olması, əhali sayının çox olması, xüsusilə uyğur millətinin assimilyasiya edilməsi istiqamətində atdığı addımları uyğurların milli varlığı üçün təhlükə hesab edirdi. Lakin uyğur xalqı onun bu siyasətini birmənalı qarşılamamış, bəziləri onu uzaqgörən dövlət rəhbəri kimi qəbul etdiyi halda, bəziləri "xain", "rus casusu" adlandırmışdır. Uyğur türklərinin bu baxışının bir səbəbi də SSRİ-nin materialist nəzəriyyəsinin islam dini ilə tam ziddiyyət təşkil etməsi olmuşdur. İslam dininin dəyərlərinə bağlı olan xalq SSRİ ilə hər hansı bir yaxınlığı qəbul etmək istəməmişdir.

1949-cu ildə Çində Maonun başçılığı altında kommunist partiyasının hakimiyyətə gəlməsi bütün hesabları alt-üst edir. SSRİ ilə eyni ideyaları təbliğ edən Çin artıq ən yaxın müttəfiqə çevrilir. Dostluq masasında Stalin Şərqi Türküstan Respublikasını yeni dostu Maoya peşkəş çəkir. Bunun üçün Mao konfrans təşkil edir və Əhməd Qasimi rəhbərliyində Şərqi Türküstan Respublikasının nümayəndə heyətini də həmin konfransa dəvət edir. Əhməd Qasiminin rəhbərlik etdiyi nümayəndə heyətini Pekinə aparmaq üçün Qazaxıstan ərazisindən uçuşa keçən təyyarə yolda "qəza"ya düşür və Şərqi Türküstan Respublikasının quruluşunu elan edən bütün siyasi elita həlak olur. Başsız qalan respublikaya Mao qısa vaxtda qoşun çıxarır. SSRİ-nin də yaxın dəstəyi ilə Şərqi Türküstan Çin tərəfindən işğal olunur. Dəfələrlə üsyana qalxmalarına baxmayaraq, uğur əldə edə bilməyən uyğur türkləri Çin Xalq Respublikasının sərt, amansız rəftarına məruz qalır. Minlərlə adam öldürülür, 150 000-dən çox adam sürgün edilir, qanunsuz həbslər başlayır. Evlərə basqınlar edilir, qadınlar təcavüzə məruz qalır. Dul qalmış qadınlara çinli əsgərlərlə evlənmələri üçün təzyiqlər edilir. Xalqın içərisinə yerləşdirilmiş casusların verdikləri məlumatlar əsasında sorğusuz-sualsız həbs olunmuş adamlar olmazın işgəncələrə məruz qalırlar. Şərqi Türküstana kütləvi olaraq çinlilərin köçürülməsi siyasəti başlayır. Burada məqsəd həm Çin Xalq Respublikası üçün sosial dayaq yaratmaq, həm də uyğur türklərinin assimilyasiyasına nail olmaq idi.

1955-ci ildə Şərqi Türküstanın əyalət statusu ləğv edilir və muxtar vilayət hesab edilir. Uyğur qızları zorla evlərindən çıxarılıb zavod və fabriklərdə işlədilmək üçün aparılır. İşlədildikləri yerlərdə əməkhaqqı almadan, bir qarın yeməyə möhtac, quldarlıq quruluşu rejiminə bərabər bir istismara məruz qalırlar. Lakin istismar yalnız əməyin istismarı ilə qalmır, cinsi istismarlar, təcavüzlər baş alıb

Tarixi vəraqləyənlər yaxşı bilirlər ki, Çin hakimiyyəti hələ Ağ Hun imperiyası vaxtından türklərin qılıncı ilə tanış olmuş və bir sıra mənbələrə görə, hətta bu qorxu onların Böyük Çin səddini inşa etmələrinə səbəb olmuşdur...

gedir. Həmin qızlar nə ailələri ilə əlaqə saxlaya bilir, nə də evlərinə geri qayıda bilirlər. Başları üzərində daima əli dəyənəkli Çin əsgərlərinin durduğu bir rejimdə həyatları məhv olur. Əbəs yerə deyil ki, 1955–65-ci illərdə uyğur türkləri irili-xırdalı olmaqla ümumilikdə 58 dəfə etiraz aksiyasına cəhd etmiş, lakin hər dəfə ən ağır şəkildə cəzalandırılmışlar.

1945-ci ildə Şərqi Türküstan ərazisində əhalinin 80%-i uyğur türkü, 6%-i çinli, yerdə qalanları isə qazax, özbək, qırğız türkləri olduğu halda, 2000-ci ildə həmin ərazidə əhalinin 46%-nin uyğur, 39%-nin isə çinli olması uyğurlara qarşı törədilən soyqırımının nəticəsidir.

5 iyul 2009-cu il tarixində insan əməyinin amansız istismarından təngə gəlmiş uyğur xalqı etiraz aksiyası keçirir. Uyğurların işlədikləri fabriklərə hücum edən çinlilər onları dəyənəklərlə döyürlər. Çinlilərin bu zorakılığı uyğurların küçələrə çıxmasına və yürüşünə səbəb olur. Uyğur gəncləri Çin silahlı qüvvələri tərəfindən mühasirəyə alınır. Qarşıdurma baş verir və minlərlə uyğur öldürülür, bir o qədəri də həbs edilir. Lakin Çin mətbuatı yenə "Çin üsulu" məlumatlarla ölən çinlilərin sayının uyğur türklərinin itkilərindən 3 dəfə çox olduğunu göstərir. Digər ölkələrdə öz vətəndaşlarının barmaqla sayılan sayda qətlə yetirilməsini günlərlə, aylarla mətbuatda canlandıran, insan hüquq və azadlıqlarının pozulmasını şiddətlə qınayan, tribunalarda diqqəti həmin hadisələrə çəkərək səbəbkarlarını pisləyən, onların cəzalandırılması adı ilə başqa ölkə ərazilərinə qo-

şun yeritməyi belə gündəmə gətirən siyasilər uyğur türklərinə qarşı törədilən bu insanlıq cinayətini görməməkdə israr edirlər.

2013-cü ildə Çin Xalq Respublikası nəqliyyat, boru-xətt, ticarət yolları vasitəsilə dünyanın 70 ölkəsi ilə birbaşa əlaqə qurmaq layihəsini hamıya bəyan etdi. Sözügedən layihənin mərkəzi isə "Sincan" adlanan Şərqi Türküstan ərazisidir. Çünki Çinin həm Qərbə açılan qapısı, həm də kömür, neft, qaz yataqları məhz bu ərazidə yerləşir. Çinin əsas məqsədi burada yaşayan uyğurların kökünü kəsmək və əhalini tamamilə çinliləşdirməklə həmin bölgədən tam arxayın olmaqdır.

Uyğur türklərinin nüfuzunu zədələmək, onları dünyaya terrorist kimi təqdim etməklə baş verə biləcək bütün müdafiələrdən məhrum etmək məqsədilə Çin hökuməti İraq və Suriyada baş vermiş qarışıqlıqdan istifadə etmişdir. Uyğur türklərinin ölkənin cənub sərhədlərini sərbəst şəkildə tərk edərək İŞİD qanunsuz silahlı birləşməsinə qoşulmalarına şərait yaratmışdır. Daha sonra 300-dək üzvü olan Şərqi Türküstan İslam Təşkilatını mətbuat vasitəsilə dünyaya təqdim edərək uyğurlara qarşı apardığı soyqırımı fəaliyyətlərini radikal dini qruplarla, terroristlərlə mübarizə kimi təqdim etmişdir. Həmin təşkilatdakı uyğurların sayı 300-dək olduğu halda, Şərqi Türküstanda yaşayan uyğurların sayı 20 000 000-dan çoxdur. Çin həbsxanalarında xüsusi amansızlıqla qəsdən adam öldürmə, cinsi istimar cinayətlərindən təqsirli bilinərək azadlıqdan məhrum edilmiş on minlərlə çinlini dünyaya təqdim edib onların törətdikləri əməlləri Çin xalqını xarakterizə edən amil kimi təqdim etmək nə qədər ədalətli olardısa, Çin hökumətinin bu mövqeyi də ancaq o qədər adil hesab edilə bilər.

2017-ci ildən etibarən Şərqi Türküstan ərazisində uyğur türklərinin oxuduğu məktəblərdə onlar ana dilində təhsil almaq hüququndan məhrum edilmiş, tədrisin yalnız Çin dilində aparılması tətbiq olunmuşdur. Bundan başqa, uyğur türklərinin islam dininə bağlı olması səbəbiylə Məhəmməd, Fatimə, Aişə kimi bir sıra adların körpələrə verilməsi qadağan edilmiş, ölkə ərazisində məscidlər dağıdılmış, uyğur xalqının qədim milli abidəsi hesab edilən, 800 illik tarixi olan Keriyə məscidi yerlə bir edilmiş, qəbiristanlıqlar dağıdılmış, 18 yaşına çatmamış şəxslərin məscidlərdə ibadəti qadağan edilmişdir. Sosial şəbəkələrdə uyğur türklərinin gördükləri işgəncələrdən, qeyri-insani münasibətlərdən bəhs etdikləri yüzlərlə qandonduran videogörüntülər mövcuddur. Ölkədən bir fürsət taparaq qaça bilmiş uyğurların hələ də orada qalan soydaşları üçün bu üsulla mübarizə aparmaqdan başqa çarələri yoxdur.

Uyğur türklərinin saxlanıldığı düşərgələr hündür daş hasarlarla əhatə olunmuş, üzərində tikanlı məftillər olan, müşahidə güllələrinin olduğu və həmin güllələrdə silahlı şəxslərin növbədə durduqları bir məkandır. Bu məkan dünyanın hər yerində cəzaçəkmə müəssisəsi, yaxud həbsxana adlanır. Bir milyona yaxın uyğur türkü bu düşərgədə qanunsuz azadlıqdan məhrum edilib. Hamısının yalnız bir "günah"ı var, o da uyğur türkü olmaqdır.

Bir zamanlar böyük bir coğrafiyaya xaqanlıq edən uyğur türklərinin bugünkü halı, əfsuslar olsun ki, belə acınacaqlıdır. Bir zamanlar uyğur türkləri dedikdə olduqları yerdə ədalətin, dostluğun, mərdliyin, düşmənə qarşı belə insanca davranmağın əsas dəyər hesab olunduğu, güclü, qüdrətli, atlarının kişnəməsindən düşmənlərinin tir-tir əsdiyi ərənlər yada düşürdüsə, indi uyğur türkləri dedikdə çarəsizlik, məzlumluq, dustaqlıq, əsirlik həyatı, məyusluq xatırlanır. Amma bütün bu məyusluqların arasında bir ümid var. O ümiddir bu gün uyğur türklərinə təskinlik verən. Onlar bu qədər zülm qarşısında uyğur millətinin silinib itməsinə imkan verməyən Allaha və qəlblərində qoruyub saxladıqları azadlıq eşqinə inanır, bir gün üfüqdə onları zülmdən xilas olmaqla müjdələyən, yeni nəsillərin içərisindən çıxacaq bir "Ağ atlı oğlan"ın gələcəyinə ümid bəsləyirlər.

Azərbaycan Respublikası
Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI